**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANLILARIN ƏNƏNƏVİ HƏYAT TƏRZİNDƏ FİZİKİ MƏDƏNİYYƏTİN ROLU

İxtisası: 5102.01 - Etnoqrafiya və Etnologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Bünyamin Nağdəli oğlu Qəmbərli**

fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin İctimai fənlər kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Antropologiya elmləri doktoru, professor
**Əliağa Əyyub oğlu Məmmədli**

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
**İlhamə Gülbala qızı Məmmədova**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Şəhla Tofiq qızı Nuruzadə**

tarix üzrə fəlsəfə doktoru
**Günay Çapay qızı Həsənova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının Elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Fəzayıl İmran oğlu Vəliyev**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və öyrənilmə dərəcəsi:** Azərbaycan xalqının ənənəvi mədəniyyəti qədim və zəngindir. Özündə böyük bir dövrün tarixi təcrübəsini ehtiva edən zəngin ənənəvi mədəniyyətin içərisində fiziki mədəniyyətin xüsusi yeri var. Xalqımız öz həyat təcrübəsində yaratdığı fiziki mədəniyyəti min illər boyu zənginləşdirərək onu oyun, əyləncə və yarış formalarında müasir dövrümüzə qədər yaşadıb. Biz bu tədqiqatda fiziki mədəniyyəti ovçuluq, əyləncə və hərbi-döyüş təlimi əsasında araşdıracağıq.

İbtidai insanın yaşayış uğrunda mübarizəsinin əsasını müxtəlif məqsədlər üçün edilən fiziki hərəkətlər təşkil edir. Bu hərəkətlər sisteminə ibtidai insanın özünü qorumaq üçün müdafiə hərəkətlərini, təklikdə və digər insanlarla olan ov etmə üsullarını, müxtəlif hərəkətləri təkmilləşdirmək üçün istifadə etdikləri çoxlu ayin və ya təsvirlərlə edilən oyunları daxil edə bilərik. Deməli fiziki mədəniyyət və onun bir hissəsi olan oyunların bir çoxu qədim dövrlərdə yaranıb və cəmiyyətin inkişafında aktiv rol oynayıb.

İnsan fəaliyyətinin zəruri hissəsi kimi fiziki mədəniyyətin formalaşmasında oyunların rolu böyükdür. Ona görə də fiziki mədəniyyəti müxtəlif təlimlər, oyun və idman aspektindən araşdırmaq, xalqın həyatındakı rolunu müəyyənləşdirmək vacibdir. Həm insanların zəruri ehtiyacları uğrunda mübarizə, həm də əyləncə mahiyyətli ibtidai oyunlar cəmiyyətin həyatında önəmli yer tutmuşdur. İbtidai insanın ovçuluq dövrü müxtəlif oyunlarla zəngin olub. İnsanlar ova getməzdən öncə ovu əldə etmək üçün müxtəlif oyunlar icra edərək ova hazırlaşıblar. Hazırlıq və məşq xüsusiyyətli oyunlar sonrakı dövrlərdə də insanların həyatında önəmli rol oyunayıb. İnsanlar gələcək həyata uşaq yaşlarından oyunlar vasitəsilə hazırlanıb. Bir qisim oyunlar ayin və mərasim mahiyyətli olmuşdur. Belə ki, qədim insanın təbiətə təsir göstərmək və ya hami ruhlardan yardım diləmək məqsədilə icra etdiyi bir sıra arxaik oyun və ayinlər mövcud olmuşdur. Əsasında xalq inanclarına dayanan bir sıra əski rituallar da oyunlarla əlaqəli öyrənilə bilər. Bu isə oyunla ayinin, fiziki mədəniyyətlə mənəvi mədəniyyətin əlaqəsini də özündə ehtiva

etmiş olur.

Fiziki mədəniyyətlə bağlı bir sıra tədqiqatlar aparılsa da bu sahənin öyrənilməsi hələ də aktuallığını saxlayır. Çünki ənənəvi mədəniyyət sistemində fiziki mədəniyyət xüsusi bir yer tutur və onun tədqiq edilməsi önəmlidir.

Xalq qədim dövrlərdən bu günə qədər özünün fiziki varlığını, sağlamlığını və həyatı üçün vacib olan fiziki hazırlıq vəziyyətini ənənəvi yolla təmin etmişdir. Bu ənənənin özü zəngin bir fiziki mədəniyyət təcrübəsi yaradıb. Belə bir zəngin tarixi təcrübənin öyrənilməsi isə həm fiziki mədəniyyətin keçmişini və bugününü, həm də onun cəmiyyətin gələcək həyatındakı yerini və rolunu müəyyənləşdirmək baxımından vacibdir.

Müəyyən dövrlərdə milli mədəniyyətin öyrənilməsi sahəsində məhdudiyyətlər olub. Xalqın tarixini, etnoqrafiyasını, dilini və folklorunu elmi şəkildə öyrənilməyə başlandığı XIX əsrdə Azərbaycanın şimal hissəsi Rusiya imperiyası tərəfindən işğal olunub. Müstəmləkə şəraitində isə xalqın öz keçmişini-tarixini, etnoqrafiyasını-ənənəvi mədəniyyətini öyrənmək imkanı olmayıb. Çar Rusiyası dövründə aparılan araşdırmalar da imperiyanın ideoloji maraqlarına tabe etdirilib. Sovet dövründə aparılan tədqiqatlar sovet tarixşünaslığı çərçivəsində öyrənildiyindən Azərbaycan xalqının mədəniyyətinin digər sahələri kimi fiziki mədəniyyəti də məhdud çərçivədə araşdırılıb.

Azərbaycan zəngin mədəniyyəti və böyük bir keçmişi olan Türk dünyasının bir parçası olduğundan onun fiziki mədəniyyəti də bu kontekstdə öyrənilməlidir. Bu isə çar rusiyası və sovetlər ittifaqı dövründə mümkün deyildi. Azərbaycan fiziki mədəniyyətini layiq olduğu şəkildə obyektiv öyrənmək imkanı yalnız dövlət müstəqilliyinin bərpasından sonra mümkün olub.

Azərbaycanın müstəqillik qazanması xalqın etnogenezinin, dilinin, tarixinin, mədəniyyətinin hərtərəfli, obyektiv və elmı əsaslarla öyrənilməsində və təbliğində yeni imkanlar açdı. Azərbaycan tarixi və etnoqrafiyasının çar Rusiyası və SSRİ dövründə ciddi öyrənilməməsi, öyrənilən sahələrin imperiya maraqlarına, sovet ideologiyasına uyğunlaşdırılması və təhrif olunması, milli təfəkkürlü kadrların hazırlanmaması, tək-tək milli təfəkkürlü kadrların ideoloji

basqı altında və nəzarətdə saxlanması, Azərbaycan xalqının özünüdərk prosesinə xidmət edən elmi əsərlərin yazılmasına elmi və siyasi əngəllərin törədilməsi bu sahədə boşluqların yaranmasına səbəb olmuşdur. Bu səbəbdən Azərbaycan tarixi və mədəniyyəti, bu mədəniyyətin böyük bir sahəsini təşkil edən fiziki mədəniyyət yetərincə öyrənilməmişdir. Müstəqillik dövrünün tədqiqatları bir çox sahələrdə olduğu kimi fiziki mədəniyyət sahəsinin də araşdırılmasına  böyük ehtiyac olduğunu ortaya çıxardı. Apardığımız tədqiqat bu ehtiyacdan yaranıb və bu boşluğun doldurulmasına xidmət edir.

Tədqiaqatda fiziki mədəniyyət qeyd etdiyimiz kimi ovçuluq, əyləncə və hərbi-döyüş təlimləri əsasında öyrənildiyi üçün mövzu ilə bağlı araşdırmaları bir neçə istiqamətdə izləmişik. Arxeoloji tapıntılar və qayaüstü yazılar qədim dövrün  fiziki mədəniyyət izlərini qoruyan dəyərli məlumatlar kimi diqqətdə saxlanılıb. Bununla yanaşı müxtəlif tədqiqatlarda fiziki mədəniyyətlə bağlı məlumatlar, fikir və mülahizələr tədqiqata cəlb edilib. Maddi mədəniyyət nümunələrindəki əlaqədar bilgilər, yazılı qaynaqlar və tədqiqatlarla yanaşı xalqın ənənəvi həyat tərzində yaşayan oyun və yarışlarla bağlı araşdırmalar təhlil olunub.

Mövzu ilə bağlı məlumatlar "Kitabi-Dədə Qorqud", "Divanü lüğat-it-türk" kimi abidələrdən, Nizami Gəncəvinin əsərlərindən və digər orta əsrlərə aid ədəbi qaynaqlardan nümunələr götürülməklə arxeoloji materiallarla, qayaüstü rəsmlərlə, minatür və xalçalardakı təsvirlərlə və s. müqayisəli şəkildə araşdırılıb. Yazılı qaynaqlar və ənənəvi nümunələrin müqayisəli təhlilini özündə əks etdirən tədqiqatlar diqqətlə öyrənilib.

XIX əsrin sonları XX əsrin əvvəllərində çıxan bir sıra nəşrlər, o cümlədən SMOMPK məcmuəsindəki materiallar nəzərdən keçirilib.

Azərbaycan tarixini, folklorunu, mifalogiyasını, bayramları, mərasimləri və oyunları tədqiq etmiş M. H. Təhmasibin "Azərbaycan xalq dastanları" [1] , N. Vəlixanlının "Naxçıvan – ərəblərdən

---

[1] Təhmasib, M. H. Azərbaycan xalq dastanları / M.H.Təhmasib. – Bakı: Elm nəşriyyatı, - 1972. – 399 s

monqollaradək (VII-XII)” [2], H. A. Həvilovun “Azərbaycan etnoqrafiyası (oçerklər)” [3], Z. Bünyadovun “Azərbaycan VII-IX əsrlərdə” [4], E. Aslanovun “El-oba oyunu, xalq tamaşası” [5], M. A. Dadaşzadənin “Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti” [6], İ. M. Cəfərzadənin “Qobustan qayaüstü rəsmləri” [7], H. Ağayevin “Azərbaycan milli xalq oyunları” [8], B. Abdullanın “Kitabi Dədə Qorqud”un etnik ənənə, mərasim sistemində mifoloji təsəvvürlərin yeri [9], C. Rüstəmovun “Qobustan dünyası” [10], X. A. Ağayevanın “Azərbaycanlıların ənənəvi bayramları, oyun və əyləncələri” [11], F. Hüseynovun “Azərbaycan atçapanları və atüstü milli oyunlar” [12], Ə. Y. Qasimovun “Azərbaycan xalq oyunlari” [13] və b. tədqiqatlarda mövzu ilə bağlı faktlar, məlumatlar, fikir və mülahizələr nəzərdən keçirilib, tədqiqatın müəyyən hissələrində onlara münasibət bildirilib. Mövcud araşdırmalrda dissertasiya işinin mövzusuna aid olan fikirlərdən elmi prinsiplərə uyğun şəkildə istifadə olunub.

Tədqiqatın önəmi və işlənmə səviyyəsi nəzərə alınaraq

---

[2] Vəlixanlı, N. Naxçıvan – ərəblərdən monqollaradək (VII – XII) / N.Vəlixanlı. – Bakı: “Elm”, - 152 s.

[3] Həvilov, H. A. Azərbaycan etnoqrafiyası (oçerklər) / H.Həvilov. – Bakı: Elm, - 1991. - 256 s.

[4] Bünyadov, Z. Azərbaycan VII-İX əsrlərdə / Z.Bünyadov. – Bakı: Azərnəşr, - 1989. - 336 s.

[5] Aslanov, E. El-oba oyunu, xalq tamaşası / E.Aslanov.-Bakı: İşıq,- 1984.- 276 s.

[6] Dadaşzadə, M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti / M.Dadaşzadə. - Bakı: Elm, - 1985. - 216 s.

[7] Cəfərzadə, İ. M. Qobustan qayaüstü rəsmləri / İ.Cəfərzadə. - Bakı: YNE “XXI”, - 1999. - 321 s.

[8] Ağayev, H. Azərbaycan milli xalq oyunları / H.Ağayev.-Bakı: Azərnəşr, - 1992. - 80 s.

[9] Abdulla B. “Kitabi Dədə Qorqud”un etnik ənənə, mərasim sistemində mifoloji təsəvvürlərin yeri / B. Abdulla. – Bakı: Təknur. – 2008. – 120 s.

[10] Rüstəmov, C. Qobustan dünyası / C.Rüstəmov.-Bakı: Azərnəşr,- 1994.- 176 s.

[11] Ağayeva, X. A. Azərbaycanlıların ənənəvi bayramları, oyun və əyləncələri / Tarix elmləri namizədi alimlik dərəcəsi dissertasiyası, etnoqrafiya / - Bakı, 2005.- 152 s.

[12] Hüseynov, F. Azərbaycan atçapanları və atüstü milli oyunlar / F.Hüseynov. - Gəncə: Ekologiya, - 1998. – 198 s.

[13] Qasimov, Ə. Y. Azərbaycan xalq oyunlari / Ə. Qasımov. - Baki, Baki Universiteti nəşriyyati, - 2006. - 187 s.

müxtəlif muzeylərdəki eksponatlar, oyun medançaları və vasitələri diqqətlə incələnmiş, informatorlarla görüşüb söhbət aparılmışdır.

Tədqiqatlarda da təsdiqlənən ümumi baxış belədir ki, Azərbaycan xalqının yaratdığı və daşıyıcısı olduğu böyük mədəniyyətin tərkib hissəsi olan fiziki mədəniyyətin insan oğlunun bugünə gəlib çatmasında oynadığı rolu aydınlatması, xalqın tarixi yaddaşını təzələməsi və fiziki mədəniyyətin müəyyən sahələrinin bərpası baxımından öyrənilməsi etnoqrafiyanın vacib problemlərindən biridir.

Azərbaycan xalqının yaratdığı maddi və mənəvi mədəniyyət nümunələri ilə bağlı cildlərlə kitablar, monoqrafiyalar, elmi məqalələr çap olunsa da, bir çox sahələri yetərincə öyrənilməmiş, bəzi sahələr diqqətdən kənarda qalmışdır. Belə az öyrənilən sahələrdən biri Azərbaycan xalqının min illərlə yaratdığı, dərin ağıl, böyük əmək və uzun zamanla başa gələn, xüsusi bacarıq və vərdişlər tələb edən, insanın sağlamlığına, görünüşünə, geyim və qidalanma mədəniyyətinə, döyüş və yarış ruhuna, əmək fəaliyyətinə və əyləncə zövqünə - bütövlükdə yaşamının bütün sahələrinə əvəzsiz təsiri olan fiziki mədəniyyətdir.

Təəssüflə qeyd edilməlidir ki, Azərbaycan xalqının yaratdığı fiziki mədəniyyət çox zaman araşdırmaçıların diqqətindən kənarda qalmış, az hallarda isə ötəri toxunulmuşdur. Məsələn, H. Həvilovun "Azərbaycan etnoqrafiyası" kitabında Azərbaycan xalqının etnik mədəniyyəti haqqında dəyərli bilgilər olmasına baxmayaraq fiziki mədəniyyətdən yetərincə bəhs olunmamışdır[14]. Yaxud S. Onullahinin "XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi" kitabı qeyd olunan dövrü öyrənmək baxımından çox dəyərlidir. Müəllif bütün kitabında bir neçə yerdə oyun və yarışlardan söz açır ki, bu da sənətkarlığı, memarlıq və şəhərsalmanı, idarəetməni və s. araşdırmaq üçün köməkçi vasitə kimi istifadə olunur[15]. Eyni ilə "Azərbaycan etnoqrafiyası" kitabının III cildində fiziki mədəniyyət, onun ayrı-ayrı növləri və oyunlardan bir neçəsinin adı çəkilir və onların yalnız bir

---

[14] Həvilov, H. A. Azərbaycan etnoqrafiyası (oçerklər) / H.Həvilov. – Bakı: Elm, - 1991. - 256 s.

[15] Onullahi, S. M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi / S. M. Onullahi. – Bakı: Elm, - 1982. - 280 s.

qismi haqqında bilgi verilir[16].

Azərbaycan folklorunun üçün əhəmiyyətli olan onlarla monoqrafiya, yüzlərlə məqalə yazılsa da, monoqrafiya və məqalələri yazan müəlliflərin maraq dairəsi başqa problemlərin araşdırılmasına yönəlmiş, fiziki mədəniyyət, xalq oyun və əyləncələrinə toxunan məlumatlar qısa və səthidir. Araşdırmaçılar Azərbaycan folklorunun ən geniş yayılmış qollarından olan qəhrəmanlıq dastanlarını araşdırarkən etnogenez və etnik tarixə diqqət yetirmiş, bu sahədə əhəmiyyətli işlər görmüşlər. Kitabi Dədə Qorqudu "*milli ədəbi düşüncənin başlanğıcı*" [17] , Azərbaycan xalqının keçmişini, etnoqrafiyasını, dil və ədəbiyyat tarixini öyrənmək baxımından dəyərli bir mənbə, "*tarixçi üçün xalqımızın tarixi, ədəbiyyatşünas üçün onun epopeyası, etnoqraf üçün isə milli əlamətlər səlnaməsi...*" [18] adlandırırlar. Dilçi T. Hacıyevin dediyi "*Dədə Qorqud" bizə çatan halında bədii əsər ölçülərində olsa da, başlanğıcında salnamə işi görmüşdür. Ümumiyyətlə, söylənən "epos tarixin şifahi dərsliyidir"* [19] fikri də, R. Ağayevin *"Kitabi-Dədə Qorqud" Azərbaycan turklərinin etnik tarixidir, onun tarixi coğrafiyasıdır. O, butov bir xalqm qəhrəmanlığını ozundə əks etdirən bir eposdur və Azərbaycan turklərinin etnik yaddaşının və arxaik təfəkkurunun oyrənilməsi baxımından olduqca qiymətlidir"*[20] sözləri də Dədə Qorqud dastanının dəyərini anlatmaq baxımından önəmlidir. Bu baxımdan qəhrəmanlıq dastanları Azərbaycan xalqının fiziki mədəniyyətini öyrənən mütəxəssislər üçün də dəyərli xammaldır[21].

---

[16] Azərbaycan etnoqrafiyası. [3 cilddə] / Baş red. T.Bünyadov. – Bakı: Şərq-Qərb, - c. 3. – 2007. - 568 s.

[17] İsmayılova, Y. "Dədə Qorqud kitabı" və müasir Azərbaycan ədəbi düşüncəsi/ Y.İsmayılova.-Bakı: Elm, - 2011. – s. 7

[18] Cəmşidov, Ş. "Kitabi Dədə Qorqud" / Ş.Cəmşidov. – Bakı: Elm, - 1977. - s. 32; Cəmşidov, Ş. "Kitabi-Dədə Qorqud"u vərəqləyərkən /Ş.Cəmşidov. - Bakı: Gənclik, - 1969.-s. 4

[19] Hacıyev, T. İ. Azərbaycan ədəbi dilinin tarixi. [2 hissədə] / T.Hacıyev. -. Bakı: Elm‖, I hissə. – 2012. - s. 47

[20] Ağayev, R. Azərbaycan türklərinin etnik tarixinin öyrənilməsində "Kitabi-Dədə Qorqud"un rolu. // - Bakı: Geostrategiya. İctimai-siyasi, elmi-populyar jurnal, - 2016. № 04 (34), - s. 25

[21] Qəmbərli B. Fiziki tərbiyə mədəniyyətimizin tarixindən // - Bakı: Dədə Qorqud, elmi-ədəbi toplu. – 2014, I (50). – s. 139

Təəssüflə bildirməliyik ki, Dədə Qorqud dastanı haqqında belə dəyərli fikirlər deyilməsinə, yüzlərlə kitab, məqalə, onlarla dissertasiya yazılmasına baxmayaraq[22] dastanda Azərbaycan xalqının fiziki mədəniyyəti, bu mədəniyyətin tarixi, xalqın həyatındakı təsir və əhəmiyyətini özündə gizləyən və yaşadan deyim, ifadə, şeir, bənzətmə, dua və s. məsələlərə yetərincə diqqət yetirilməmişdir. Halbuki, *"son illərin tədqiqatları belə bir qənaət üçün əsas yaradır ki, hər bir xalqın keçdiyi tarixi yol müəyyən sosiomədəni sistemlə, etnik psixologiya ilə, tarix boyu dayanıqlı dəyərlər sistemi ilə əlaqədardır"* [23] . Azərbaycan xalqının dəyərlərinin dərindən öyrənilməsi isə tarixi yaddaşının oyanması və özünüdərk prosesinin sürətlənməsi üçün önəmlidir. S. Hacıyeva tarixi yaddaşı etnik özünüdərkin əsas elementlərindən biri hesab edir[24], başqa sözlə "*keçmişdə vaqe olan bir iş gələcək üçün düsturüləməldir və elmə əsaslanan bir əməl möhkəm və payıdar olar*"[25] . Təəssüf ki, Azərbaycanda etnik özünüdərkə ciddi təsir edə bilən, davamlı və dayanıqlı milli dəyər olan fiziki mədəniyyət yetərincə öyrənilməyib. Bəzi tədqiqatçılar bu problemi xüsusilə qeyd edir[26]. Bu sahəyə diqqət yetiriləndə isə başqa sahələrin öyrənilməsi üçün köməkçi vasitə kimi yanaşılır. Ə. Əsgər orta əsr müəlliflərinin əsərlərində də oyunlar haqda məlumatın məhdud oluğunu, bunun səbəbinin də orta əsr

---

[22] "Kitabi-Dədə Qorqud" dastanı: biblioqrafiya /tərt. ed. M.Vəliyeva, M.İbrahimova, G.Misirova. – Bakı: Azərbaycan Milli Kitabxanası.- 2015. - 590 s.
[23] Məmmədli, Ə. Müasir cəmiyyət və etnomədəni müxtəliflik (Etnoloji oçerklər) / Ə.Məmmədli. – Bakı: - 2017. - s. 170
[24] Гаджиева С. Т. Историческая память как элемент национального самосознания (на примере азербайджанского народа). Автореферат дис. ... канд. ист. наук. Баку: - 1998. - s. 12
[25] Bakıxanov A. Gülüstani-İrəm/A.Bakıxanov.-Bakı: Xatun Plyus nəşriyyatı, - 2010. - s. 10
[26] Qasımov, Ə. Y. Azərbaycan xalq oyunları / Ə. Qasımov. - Baki, Baki Universiteti nəşriyyati, - 2006. – s. 45; Гусейнов, Н. А., Мамедов Р. А. О некоторых памятниках материальной культуры древнего и средневекового Азербайджана. / Н.А.Гусейнов, Р.А. Мамедов.//Azərbaycan tarixinə dair materiallar, Azərbaycan Tarixi Muzeyinin əsərləri,-Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı.-1968. VII cild, - s. 30

müəlliflərinin məqsədinin oyunlar olmadığını yazır[27].

Ə. Məmmədlinin qeyd etdiyi kimi, "*etnik mədəniyyət hər bir xalqın təşəkkül tarixini, formalaşma mərhələlərini özündə əks etdirir*" [28]. Ənənəvi etnik mədəniyyətin bir sahəsi olan fiziki mədəniyyətin, ayrı-ayrı oyun və yarışların Azərbaycan xalqının formalaşmasına və inkişafına, onun mədəniyyətinin digər sahələrinə - geyim tərzinə, memarlığına, sənətkarlığına, inanc sisteminə, döyüş təfəkkürünə, musiqi yaradıcılığına, dünya görüşünə, insana, təbiətə və hevanlara yanaşmasına, bayram, şənlik və əyləncə zövqünə, yarış və rəqabət anlayışına, elmə və yeniliyə baxışına böyük təsiri vardır. A. İbrahimovanın fikrincə, xalq oyunları xalqın mədəniyyətini əks etdirir və mentalitetinin göstəricisidir[29]. Türkiyəli alimlər də fiziki hərəkətlərin mədəniyyətin bütün sahələrinə nüfuz etdiyini və Türk toplumunun vacib sahələrindən birinə çevrildiyini yazır[30].

Xalq oyunlarının zəngin xəzinə olduğunu vurğulayan F. Bayat *"bir çox hallarda ayrı-ayrı türk ellərinə məxsus xalq oyunları da sistemli şəkildə tədqiqata cəlb edilməmişdir"*[31] yazır. A. Nəbiyev isə bildirir ki, *"Xalq oyunları Azərbaycanda indiyədək kifayət qədər öyrənilmədiyi kimi, onların yazıya alınıb nəşr edilməsi də sistemli şəkildə olmamişdir. Müxtəlif dövrlərdə xalq oyunu nümunələri ayrı-ayrı münasibətlərlə bağlı çap edilmiş, müxtəsər kontekstdə təhlilə cəlb edilmişdir. Ancaq bütün görülən bu işləri yalniz onlarin*

[27] Əsgər Əhməd. XII-XIV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti / tarix elmləri namizədi alimlik dissertasiyası, etnoqrafiya, etnologiya və antropolpgiya / - Bakı, 2009. – s. 132

[28] Məmmədli, Ə. Müasir cəmiyyət və etnomədəni müxtəliflik (Etnoloji oçerklər) / Ə.Məmmədli. – Bakı: - 2017. - s. 165

[29] İbrahimova, A. Azərbaycan xalq oyunları (Dirədöymə, Qığımətik) // Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları mövzusunda beynəlxalq elmi konfransın materialları, - Tərtər: - 14 noyabr 2014. Bakı: Elm və Təhsil,– 2014. - s. 86

[30] Ayhan D., Tarihsel süreç içerisinde türk kültüründe spor algısı / D.Ayhan, İ.Ahmet // Manas Sosyal Araştırmalar Dergisi, - 2015. Cilt. 4, sayı 5. s. 47

[31] Qarabağ xalq oyunları və meydan tamaşaları / F.(G).X.Bayat, M.K.İmanov, İ.F.Rüstəmzadə. [və b.] – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, - 2017. – s. 10-11

*öyrənilməsinin başlanğic mərhələsi hesab etmək mümkündür"*[32].

"Azərbaycan tarixi" kitabında VI yüzillikdə məktəblərdə təlimlə bağlı oxuyuruq: *"Tədris kursuna şahmat, dama, top (müasir polosayağı) oyunlarının öyrədilməsi də daxil idi"*[33]. Çox güman burda "top" deyildikdə "çovkan" nəzərdə tutulur. Təəccüblüdür ki, müəlliflər nədənsə "çovkan" və ya "çovkansayağı" yox, məhz "polosayağı" deyə tanıdır. Azərbaycanda yarandığı təkzibolunmaz faktlarla otraya qoyulan, Azərbaycandan Hindistana və ordan da XIX yüzillikdə İngiltərəyə keçdiyi dəqiq bilinən[34], XIX əsrədək Azərbaycanda ən azından 2000 il öncədən oynanan oyunun "polosayağı" adalndırılması Azərbaycandakı fiziki mədəniyyətin, milli oyun və yarışların öyrənilmə səviyyəsinin aşağı olmasından irəli gəlir.

Araşdırmalara görə Azərbaycan xalqının yaratdığı və sonrakı nəsillər üçün yaşatdığı çox oyun və hərəkətlər kompleksi milli mədəniyyətə biganəliyin, özünüdərk prosesinin zəifliyinin, adət-ənənələrdən uzun müddətə uzaqlaşmağın, eyni zamanda tarixi proseslər nəticəsində Azərbaycan xalqına qarşı aparılan düşünülmüş, çoxşaxəli və ciddi siyasətin sonucu olaraq öyrənilmədiyinə, təbliğ olunmadığına, müəyyən dönəmdə "cəmiyyətin sivilizasiyasına uyğun olmadığı üçün" istifadə edilməsinə maneələr törədildiyinə görə sıradan çıxdı, yaddaşlardan silindi[35]. Azərbaycan milli oyunlarının sıradan çıxmasının və unudulmasının digər səbəbi qərbin assimliyasiya, kürəsəlləşmə və yönəltmə siyasətinə xidmət edən, böyük sərmayələr hesabına çeşidli yollarla təbliğ olunduğundan qısa müddətdə geniş yayılan, ölçüyəgəlməz dərəcədə kütləvilik qazanan

---

[32] Qasimov, Ə. Y. Azərbaycan xalq oyunlari / Ə. Qasımov. - Baki, Baki Universiteti nəşriyyati, - 2006. - s. 3-6

[33] Azərbaycan tarixi. [7 cilddə] / məsul red. N.Vəlixanlı. – Bakı: Elm, - c. 2 (III-XIII əsrin I rübü). - 2007. - s. 103

[34] Acalov, E. F. Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi / E.Acalov. – Bakı: Maarif. - 1985. - s. 10; Hüseynov, F. Azərbaycan atçapanları və atüstü milli oyunlar / F.Hüseynov. - Gəncə: Ekologiya, - 1998. – s. 53; Qabıssanlı (Həmzəyev), Ş. Azərbaycan xalçalarının açılmamış sirləri / Ş. Qabıssanlı. – Bakı: Təhsil, - 2014. - s. 217

[35] Qəmbərli B. Fiziki tərbiyə mədəniyyətimizin tarixindən // - Bakı: Dədə Qorqud, elmi-ədəbi toplu. – 2014, I (50). – s. 137

çeşidli idman və əyləncə növləri ilə rəqabətə tab gətirə bilməməsi, daha doğrusu qarşılaşdığı laqeydlik, ögey münasibət və yetərsiz təbliğatdır[36].

"El-oba oyunu xalq tamaşası" kitabında yer alan bəzi oyunlar artıq yaddaşlardan silinib, Azərbaycanın heç bir yerində oynanılmır, bəzi oyun adları arxaikləşib, anlaşılmır[37]. Unudulmayan oyunların isə istifadə arealı getdikcə daraldı, şəhərlərdən sıxışdırılıb çıxarıldı, ayrı-ayrı folklor nümunələrində və ya bölgələrdə, ucqar kəndlərdə yaşayan yaşlı nəslin yaddaşında qalıb. Hələki unudulmamış bu oyun və təlim növlərinin aqibətinin də digər oyun və təlim növləri kimi olmaması üçün, Azərbaycan xalqının yaratmış olduğu fiziki mədəniyyəti, onun tarixini, növlərini, məqsəd və mahiyyətini, inkişaf mərhələlərini, istifadə arealını, oyun qaydalarını və ən nəhayət bugünkü oyunlara təsirini öyrənmək baxımından apardığımız araşdırmalar həm bu oyunların bir çoxunun bərpası və tətbiqi üçün, həm də gələcək araşdırmaçılar üçün ciddi və dəyərli məlumatları özündə əks etdirir.

Azərbaycanda fiziki mədəniyyətdən, oyun və əyləncələrdən yazanların bir hissəsi orta əsrlərdən, xüsusi ilə Səfəvilər dövründən o tərəfə keçmir. Çox az araşdırmaçı fiziki mədəniyyətlə bağlı tarixin dərinliklərinə üz tutur. Bu sırada "Azərbaycan xalq bayramları, oyun və əyləncələri"[38], "Türk savaş sənəti"[39], "Qarabağ xalq oyunları və meydan tamaşaları" [40] kitabları və bəzi elm adamlarının konfraslardakı çıxışları Azərbaycanda fiziki mədəniyyətin, oyun və yarışların tarixini, yayılmasını, quruluşunu və növlərini öyrənmək üçün önəmlidir. Ancaq bu mənbələr Azərbaycan fiziki mədəniyyətini, onun tərkib hissəsi olan hərbi təlimləri, oyun və yarışları öyrənmək, dünyaya tanıtmaq baxımından yetərli deyil.

[36] Qəmbərli B. Fiziki tərbiyə mədəniyyətimizin tarixindən // - Bakı: Dədə Qorqud, elmi-ədəbi toplu. – 2014, I (50). – s. 137
[37] Aslanov, E. El-oba oyunu, xalq tamaşası / E.Aslanov.-Bakı: İşıq,- 1984.- 276 s.
[38] Dadaşzadə, M. A. Azərbaycan xalq bayramları, oyun və əyləncələri / M.A.Dadaşzadə. – Bakı: Elm, - 1995. - 88 səh.
[39] Əsgərov, Ə. Türk savaş sənəti/ Ə.Əsgərov, M.Qıpcaq.-Bakı: Yazıçı,-1996.-174s.
[40] Qarabağ xalq oyunları və meydan tamaşaları / F.(G).X.Bayat, M.K.İmanov, İ.F.Rüstəmzadə. [və b.] – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, - 2017. – 280 s.

Məhz bu araşdırmaların azlığı üzündəndir ki, bizə ən yaxın olan Türkiyədəki elmi ədəbiyyatın demək olar ki, hamısında istər müxtəlif silahların və istərsədə oyunların yaranma tarixi və yeri Azərbaycanda arxeoloji qazıntılar zamanı tapıldığı tarixdən çox-çox sonralar tapılmasına və istifadə edilməsinə baxmayaraq müxtəlif ərazilərə ya da tarixə aid edilir. İlk tunc dövründə Azərbaycanda ikiağızlı xəncərlərin olmasına[41], Azərbaycanın tunc dövrü abidələrindən xeyli miqdarda tunc qılınc aşkarlanmasına[42], e. ə. II minilliyin sonu və I minilliyin əvvəllərində Azərbaycanda metalişləmənin inkişaf etməsinə, təbərzin baltaların, qılınc, xəncər və s. silahların geniş istehsalına[43] və Albanların çox təkmil ikiağızlı düz və oraqşəkilli qılınclardan yararlanmasına[44] baxmayaraq türkiyəli bilim adamları türk qılıncının mənşəyinin Altay olduğunu göstərir[45]. Arxeoloji faktlarla səsləşməyən bu məlumatlar da mövzu ilə bağlı tədqiqatların yetərli olmadığını göstərməkdədir. Türkiyədəki elmi ədəbiyyatda belə hallar olduqca çoxdur. Bunun səbəbi Azərbaycanda bu sahədə araşdırmaların azlığı və bu araşdırmaların yetərincə yayılmamsıdır.

Fiziki mədəniyyətdən, oyun və yarışlardan yazan araşdırmaçılar bəzən ayrı-ayrı oyun və təlim növləri haqqında bir-birinə zid fikirlər bildirir, heç nəyə əsaslanmadan bilgilər verir ki, bu da insanlarda ciddi çaşğınlıq yaradır, oyunların mahiyyəti, tarixi və qaydaları haqqında qeyri müəyyənliyə səbəb olur. Təəssüfləndirici haldır ki, bəzi oyunlar zamanında öyrənilmədiyi və dünyaya yetərincə təqdim olumadığı, tanıdılmadığı üçün digər xalqlar tərəfindən mənimsənilir və ya başqa adla dünyaya təqdim olunur. Çovkan oyunu belə oyunlardandır. Azərbaycanda yaranmasına və qonşu xalqlar tərəfindən öyrənilməsinə baxmayaraq bu gün dünyaya

---

41 Azərbaycan tarixi. [7 cilddə] / məsul red. İ.Əliyev. – Bakı: Elm, - c. 1 (ən qədimdən-b. e. III əsri). - 2007.-s. 116

42 Mustafayev, A. H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat) / A.Mustafayev. - Bakı: «Bakı Universiteti» nəşriyyatı, - 2009. -s. 45

43 Səfərov, Y. Qədim Azərbaycan: nə bilirik .- Bakı: Azərnəşr,- 1989.- s. 63; Qasımlı, A. M. Türk mədəniyyət tarixinə giriş.- Bakı, "Orxan" NPM, - 2019. -s. 67

44 Алиев, К. Г. Античная Кавказская Албания.- Баку: Азернешр, - 1992.- с. 93

45 Baheddin Ögel. Türk kılıcının menşe ve tekamülü hakkında // - Ankra: Ankara Universitesi Dil ve Tarih-Coğrafya fakültesi dergisi,-1948. Cilt 6, sayı 5,- s. 431

Polo adı ilə təqdim olunur. Yaxud atla oynanan Sürpapaq oyunu da bu gün Fransada "Horospol" adı ilə tanıdılır.

Azərbaycan xalqına məxsus digər oyunların da taleyinin Çovkanın taleyi kimi olma ehtimalı az deyil. Bu fakt da Azərbaycanda fiziki mədəniyyətin öyrənilmə dərəcəsinin yetərli səviyyədə olmadığını və bu sahənin öyrənilməsinin çox aktual olduğnu ortaya qoyur.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Azərbaycan xalqıdır. Tədqiqatın predmetini isə azərbaycanlıların ənənəvi həyatında, maddi və mənəvi mədəniyyətində, onların məişətində və folklorunda dərin iz qoymuş, etnosdaxili və digər etnoslarla münasibətlərində mühüm rol oynayan fiziki mədəniyyət və onun ayrı-ayrı növləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi azərbaycanlıların tarixən formalaşmış ənənəvi həyat tərzində fiziki mədəniyyətin rolunu müəyyənləşdirməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur:

- Ənənəvi oyun və hərəkətlərin mahiyyətinin müəyyənləşdirməsi;
- Qadınların tərbiyəsində fiziki mədəniyyətin rolununun ortaya çıxarılması;
- Kişilərin tərbiyəsində fiziki mədəniyyətin rolunun müəyyən edilməsi;
- Ənənəvi oyun və hərəkətlərin xüsusiyyətlərinin aşkarlanması;
- Ənənəvi hərbi hazırlıq prosesində fiziki tərbiyənin rolunun aydınlaşdırılması.

**Tədqiqat metodları:** Mövzunu obyektiv və hərtərəfli tədqiq etmək üçün etnoqrafiya elminin istifadə etdiyi bütün üsul və metodlar tətbiq olunub. Bu məqsədlə fiziki mədəniyyətin müəyyən sahələrini araşdırarkən bilavasitə müşahidə, bəzi təlim növlərinin bərpası zamanı informantlarla müsahibə tədqiqat üsullarından, eyni zamanda müəyyən təlim növləri, oyun və yarışlarla bağlı qeyri-müəyyənliyi aradan qaldırmaq üçün metodoloji prinsiplərindən: tarix-müqayisə, kompleks yanaşma, tipaloji təhlil metodlarından istifadə edilmişdir.

Etnoqrafiyanın bir elm kimi digər humanitar və təbiət elmləri ilə - arxeologiya, dilçilik, folklor, ədəbiyyatşünaslıq, coğrafiya və s. əlaqələrini əsas götürərək araşdırmada elmin bu sahələrindən də istifadə olunub. Bəzi oyunların mahiyyətinin düzgün anlaşılması üçün işlədilən söz və ifadələrin mənası üzərində durulmuş, müəyyən oyunlarda isə qeyri-müəyyənliyi aradan qaldırmaq üçün insanın fiziki və bioloji imkanları baxımından yanaşılıb. "Azərbaycanlıların ənənəvi həyat tərzində fiziki mədəniyyətin rolu" mövzusunu araşdırarkən konkret təhliletmə, proseslər arasında məntiqi əlaqə metoduna üstünlük verilmiş, obyektivliyə, sistemli və kompleks yanaşmaya cəhd göstərilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Ənənəvi oyun və hərəkətlərdən cəmiyyətin inkişafının müəyyən mərhələsində, eyni zamanda bayram və şənliklərdə yarış və əyləncə məqsədi ilə yararlanılmışdır;
- Azərbaycanda qədim dövrdən başlayaraq kişilər fiziki mədəniyyətin bütün növlərindən istifadə etmişlər və bu təlimlər onlara kiçik yaşlarından öyrədilmişdir;
- Azərbaycanda qədim dövrlərdən başlayaraq qadınlar da kişilərlə yanaşı fiziki mədəniyyətin bir çox növü ilə məşğul olmuşlar;
- Atdan müxtəlif məqsədlərlə-daşıma, ovçuluq, döyüş, yarış və xəbərləşmə üçün istifadə edilən ilk yerlərdən biri Azərbaycandır;
- İngilislərin Polo adı ilə dünyaya təqdim etdiyi Çovkan oyunu miladdan öncə Azərbaycanda yaranmış, buradan dünyaya yayılmış, eyni zamanda bugünkü motobol, otüstə xokkey və qolf oyunlarının yaranmasına böyük təsir etmişdir;
- Komanda şəklində oynanan Sürpapaq oyunu Azərbaycanda yaranmış və geniş yayılmaqla yanaşı bugünkü basketbol və həndbol oyunlarının yaranmasında mühüm rol oyunamışdır;
- Fərdi və komanda şəklində oynanan Papaq oyunu da Azərbaycanda yaranan, oyunçudan xüsusi bacarıq və vərdişlər tələb edən, qadınların da qatıldığı hərbi mahiyyətli əyləncəli bir oyundur;
- Nizə azərbaycanlıların istifadə etdiyi ilk silahlardan biridir. Cirit oyunu nizə atma təlimi mahiyyətində hərbi oyun olmaqla Azərbaycanda geniş yayılmışdır;
- Sapand insanlıq tarixinin ən qədim mexanizmli, xüsusi quruluşu

olan və təlim tələb edən silahlarından biri olmaqla Azərbaycanda orta əsrlərə qədər müxtəlif forma və məqsədlərlə istifadə olunan bir silah olmuşdur;
- Kaman və ox azərbaycanlıların yaratdığı və təkmilləşdirdiyi ilk mexanizmli silahlardandır. Qopuq, Piyalə və ox və Altunqabaq oyunları da hərbi səciyyəli olmaqla Azərbaycanda yaranmış, orta yüzillərdə geniş yayılmış, hətta hökmdarların xüsusi şövq və istəklə oynadığı oyunlardır;
- İlk tunc dövründən başlayaraq hazırlanan və dəmir dövründən təkmilləşdirilərək müxtəlif adlarla fərqli ölçü və formalı qılınclar Azərbaycanda ən geniş yayılmış silahdır ki, son dövrlərədək ordu mənsublarının hamısının hazırlığında qılınc təlimi mühüm yer tuturdu;
- Müxtəlif məqsədləri həyata keçirmək üçün uzaq məsafəyə sürətli yeriş və qaçış-şatırlıq Azərbaycanda qədimdən başlayaraq məqsədyönlü, düşünülmüş və sistemli təlim növlərindən olmuşdur;
- Zorxana bir neçə idman növünü özündə birləşdirən, orta əsrlərdə Azərbaycan da daxil olmaqla şərqdə geniş yayılan oyunlardan biridir. Zorxana oyunlarını digər oyunlardan fərqləndirən cəhətlərdən biri onun xüsusi arxitektura quruluşuna məxsus binada yerləşməsidirsə, digər cəhət burda bir neçə oyunun ardıcıl olaraq icra olunması, bu oyunların mürşid tərəfindən idarə edilməsi və yalnız bura məxsus geyim və alətlərin olmasıdır.

**Tədqiqatın elmi yeniliyi:** Araşdırmada Azərbaycanda qədim dövrlərdən başlayaraq ayrı-ayrı silah, alət və vasitələrlə bağlı təlimlərin yaranması, inkişafı, xalqın həyatında rolu və günümüzdə istifadə imkanları tədqiq olunub. Araşdırma fiziki mədəniyyətin azərbaycanlıların ənənəvi həyat tərzində roluna həsr olunmuş ilk kompleks elmi tədqiqatdır:
- Tədqiqatda sapandın Azərbaycanda yaranan ilk mexanizmli silahlardan biri olduğuna, hazırlandığı material və üsullara, istifadə qaydalarına aydınlıq gətirdik.
- Tədqiqatda nizənin yarandığı ilk yerlərdən birinin Azərbaycan olduğu, inkişaf tarixi, növləri, təlim üsulları, XVIII yüzilliyədək nizədən geniş istifadə edildiyi və “Cirid” adlı oyunun hərbi hazırlıq məqsədli oyun olmaqla son dövrlərədək Azərbaycanda oyunandığı

dəqiqləşdirildi.
- Tədqiqatda Azərbaycanda yayın və oxun kəşfi, forma və növləri, yayılma arealı, istifadə sahələri, təlim üsulları, atış məsafəsi və imkanlarını, yay-oxla ilgili bir neçə oyun və yarışdan son dövrlərədək geniş istifadə edildiyini müəyyənləşdirdik.
- Həmçinin tədqiqatda atdan istifadə edilən ilk yerlərdən birinin Azərbaycan olduğu, atdan müxtəlif məqsədlərlə-daşıma, ovçuluq, döyüş, yarış və xəbərləşmə məqsədi ilə istifadə edildiyini, bu zaman müxtəlif təlim üsullarından yararlanıldığını, döyüş atları və oyun atlarının təlimini, atlı oyunların yaranma tarixi, formalaşması, mahiyyəti, yayılma arealı, oyun qaydaları, oyun alət və vasitələri, bu alət və vasitələrin materialı, hazırlanması və ölçüləri, meydança olçüləri, oyunlarda istifadə olunan söz və terminlər, bu oyunların müasir idman oyunlarının yaranmasına təsiri və s. ortaya çıxardıq.
- Araşdırmada orta əsrlərdə Azərbaycanda geniş yayılmış və son dövrlərədək istifadə olunan zorxana oyunları ilə bağlı bir çox qeyri müəyyənlik aradan qaldırılmış, oyun adlarına və qaydalarına elmi və məntiqi yanaşılmış, zorxanada istifadə edilən alətlərin forması, çəki və ölçüləri, eyni zamanda geyim vasitələri dəqiqləşdirilmişdir.
- Tədqiqatda türklərin ata idmanı olan güləş, onun yayılması, istifadə arealı, keçirilən yarışlar, orta əsrlərdə idmançıların dərəcələnməsi, istifadə edilən fəndlər, geyim vasitəsi, güləşlə bağlı çoxlu terminlər və s. ətraflı araşdırılmışdır.
- Bunlarla yanaşı qılınc oynatma, ağırlıq qaldırma, qaçış və yeriş, su idman növləri və s. oyun və yarışların yarandığı yerlərdən birinin Azərbaycan olduğu, bunların və bu sahədə istifadə edilən alət və vasitələrin adlarının Azərbaycan türkcəsində olması, eyni zamanda oyun qaydalarını, azərbaycanlıların gündəlik yaşayışlarında, bayram və şənliklərində bu təlim növlərindən, oyun və yarışlardan daimi və sistemli istifadə etdiklərini aydınlaşdırdıq.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Yazılan, cızılan, toxunan, döyülən və s. bütün qaynaqlarda Azərbaycan xalqının igidliyini, qəhrəmanlığını, bacarıq və vərdişlərini, iradə və dözümünü təsvir etmək məqsədi ilə verilən müxtəlif səpkili materiallar sistemli araşdırılmış, onlara elmi və məntiqi yanaşılmış, müqayisəli təhlil edilmiş və yekun nəticəyə varılmışdır. Azərbaycan xalqının ənənəvi

həyatında mühüm rol oynayan bir çox təlim, oyun və yarışların nəzəri məsələləri əsaslı şəkildə hazırlanmışdır. Dissertasiyada irəli sürülən hər bir iddia elmi mənbələr, tarixi qaynaqlar, müxtəlif sənətkarlıq nümunələri və etnoqrafik elementlərlə təsdiqlənmişdir. Bu nəticələr Azərbaycan xalqının ənənəvi həyatında mühüm rol oynayan fiziki mədəniyyətin araşdırılması sahəsində elmi zənginlik yaratmaqla yanaşı, bu istiqamətdə gələcəkdə aparılacaq tədqiqatlar üçün də etibarlı zəmin yaradır.

Araşdırmanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, dissertasiyanın materialları Azərbaycan etnoqrafiyasının, fiziki mədəniyyətinə və onun tarixinə dair elmi əsərlərin, ayrı-ayrı monoqrafiya və kitabların yazılmasında, tədris vəsaitləri və məlumat toplularının hazırlanmasında, bir çox oyun və yarışların bərpa olunaraq Azərbaycan xalqının yaratdığı mədəniyyət nümunəsi kimi dünyaya təqdim olunmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi:** Tədqiqatın ayrı-ayrı nəzəri müddəaları və nəticələri ATMU-nun İctimai fənlər kafedrasının iclaslarında müzakirə edilmiş və müdafiə üçün tövsiyə edilmişdir. Müəllifin dissertasiyanın məzmununu əhatə edən ikisi xarici jurnalda nəşr edilməklə 8 məqaləsi müxtəlif elmi jurnallarda və ikisi xaricdə olmaqla 5 konfrans materiallarında (ümumilikdə 13 məqalə) öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya Azərbaycan Turizm və Menecment Unversitetində həyata keçirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil olmaqla on paraqrafdan, on səkkiz bənddən, iki yarımbənddən, nəticədən, istifadə edilmiş ədəbiyyat siyahısından, qaynaqlardan və bilgivericilərdən ibarətdir. Dissertasiyanın ümumi həcmi 266715 (Giriş hissəsi 27157, I Fəsil 71895, II Fəsil 70699, III Fəsil 87975, Nəticə 8989) işarədir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, öyrənilmə səviyyəsi əsaslandırılmış, tədqiqatın obyekti və predmeti şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodoları

müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi ilə yanaşı nəzəri və praktiki əhəmiyyəti verilmişdir.

Dissertasiya işinin **"Əhalinin tərbiyə prosesində ənənəvi fiziki mədəniyyətin rolu"** adlanan birinci fəslinin **"Ənənəvi oyun və hərəkətlərin xarakteri"** başlıqlı paraqrafında Azərbycanda fiziki mədəniyyətin mahiyyətinin dövrünə və yerinə görə dəyişdiyi müəyyən edilmişdir. Azərbaycanda fiziki mədəniyyət tarixin ilkin çağlarında özünü qorumaq və üstün gəlmək məqsədi ilə tam döyüş mahiyyətində olsa da sonrakı dövrlərdə əsasən üç istiqamətdə - ovçuluq, əyləncə və hərbi məqsədlə istifadə olunmuşdur. Araşdırmada müəyyən olunub ki, bəzi vasitələr, məsələn at və ox ovçuluq, əyləncə və döyüşlərdə istifadə edildiyi halda, bəziləri məsələn şeşpər və ya gürz yalnız döyüşlərdə istifadə olunub.

**"Qadınların fiziki tərbiyəsi"** paraqrafında əsas məqsəd Azərbaycan cəmiyyətində qadınların cəmiyyət həyatına hazırlanmasında fiziki mədəniyyətin əhəmiyyətini öyrənməkdir. Azərbaycan cəmiyyətində qadına cinsinə görə heç bir fərq qoyulmamış, qadınlar da kişilərlə yanaşı cəmiyyətin eyni hüquqlu üzvü olmuş, həyatın müxtəlif sahələrində, o cümlədən fiziki keyfiyyətlər tələb edən ovçuluqda, döyüşdə və oyun xarakterli bir çox yarışlarda iştirak etmişdir. Dədə Qorqud kitabında "Qırq incə bellü qız oğlanla", "Basat altunlu günlügin tiküb oturur ikən gördilər ki, bir xatun kişi gəlür" ifadələri və ya Banıçıçəyin "pəhləvan" adlandırılması Azərbaycanda qadın-kişi bərabərliyinin və onların cəmiyyətdəki rolunun göstəricisidir. Azərbaycanda hər zaman qadınlar da müxtəlif təlim növlərini-at minmək, ox atmaq, qılınc oynatmaq, güləşmək, çovkan oynamaq və s. - yaxşı mənimsəmək üçün kiçik yaşlarından məşq etmişdir. Qadınların fərd olaraq üstün keyfiyyətlər nümayiş etdirmələri ilə yanaşı, onların dəstə, toplu halda da hünər göstərdikləri məlum olur. Qadınların hünər və igidliklərinin Qobustan qayaüstü rəsmlərində, xalça və miniatür, şifahi xalq ədəbiyyatı ilə yanaşı tarixi qaynaqlar və tədqiqat işlərində də geniş yer aldığı müəyyən oldu. Gəlinən nəticə belədir ki, Azərbaycanda qadınlar dövrün tələbinə uyğun tərbiyə olunması üçün kiçik yaşlarından düşünülmüş, sistemli və uzunsürəli olmaqla müxtəlif məşqlərə cəlb olunmuşlar.

**“Kişilərin fiziki tərbiyəsi”** adalanan paraqrafda kişilərin həyata hazırlanmasında fiziki tərbiyənin rolu tarixi qaynaqlar, arxeoloji tapıntılar, tədqiqat əsərləri, qədim və orta əsr yaradıcılıq nümunələrinə əsasən araşdırılmışdır. Dövrün tələblərinə uyğun olaraq Azərbaycanda bütün insanlar, xüsusi ilə kişilər düşünülmüş və sistemli şəkildə kiçik yaşlarından fiziki təlimlərə cəlb olunurdu. Bu təlimlər nəticəsində yetkinlik yaşına çatan hər bir kişi döyüşçü kimi yetişirdi. Dövrün tələbinə görə hər döyüşçü bir neçə silahdan istifadə etməklə yanaşı müxtəlif fiziki keyfiyyətlərə də sahib olmalı idi. Məsələn bir döyüşçü atdan ustalıqla istifadə etməyi, qılınc oynatmağı, ox atmağı, qalxan tutmağı bilməklə yanaşı, əlbəyaxa döyüş, yaxşı güləşmə və uzun məsafələri piyada qət etmək kimi güc, çeviklik, cəldlik, sürət və dözümlük aşılayan fiziki keyfiyyətlərə də yiyələnirdi. Tarixin müəyyən dövründən başlayaraq Azərbaycanda insanların fiziki hazırlığı üçün xüsusi təlimçilər və təlim yerləri də olmuşdur.

**“Yarış və əyləncə yonümlü təlim növləri”** adlanan ikinci fəslin **“Atdan istifadə yönləri və atlı oyunlar”** paraqrafında Azərbaycanda tarixi qaynaqlarda, qaya təsvirlərində, folklorda, xalça və miniatürlərdə yer alan bilgi və bəlgələrə əsasən atdan həm nəqliyyat, daşıma və xəbərləşmədə, həm də ovçuluqda, hərbi işdə və əyləncələrdə geniş istifadə olunması tədqiq olunub. Atlı oyun və yarışlar isə Azərbaycan xalqının ənənəvi yaşamında xüsusi yer tutur. “Cıdır”, “Çovkan”, “Papaq”, “Sürpapaq”, “Baharbənd” və s. kimi çox çeşidli atlı oyunların tarixi və Azərbaycanda olduqca geniş yayılması ətraflı araşdırılmışdır.

**“Ağırlıq qaldırma”** adlanan paraqrafında orta əsr mənbələri, şifahi xalq ədəbiyyatı, bayram və şənliklər tədqiq olunaraq insanın alətlə ilk təlimi olan ağır daşların ov və özünü qoruma məqsədi ilə atılmasından başlayaraq günümüzədək keçdiyi inkişaf yolu, tətbiq formaları və təlim üsulları öyrənilmişdir. Araşdırma nəticəsində Azərbaycanda geniş yayılmış ağırlıq qaldırma idmanının bugünkü disk atma, nüvə itələmə və ağırlıq qaldırma idmanının müxtəlif formalarının (birdən ağırlıq qaldırma, təkanla ağırlıq qaldırma, bir əllə ağırlıq qaldırma, uzanaraq ağırlıq qaldırma, ağır əşyaları qaldıraraq müəyyən məsafəyə aparma və müəyyən hündürlüyə atma)

yaranmasında müham təsiri olduğu nəticəsinə varılmışdır.

**“Güləş”** paraqrafında orta əsr mənbələri, şifahi xalq ədəbiyyatı, milli bayramlar, toy və şənliklər tədqiq olunaraq güləşin yaranma və inkişaf tarixi, güləşçi geyimləri, orta çağda güləşçilərin adlandırılması, güləşlə bağlı yaranan terminlər, güləşlə kişilərlə yanaşı qadınların da məşğul olduğu, güləşdən həm hərbi, həm də yarış məqsədi ilə yararlanıldığı müəyyən edilmişdir.

**“Qaçış və yeriş təlimi”** paraqrafında insanın gündəlik yaşam halı olan ilk və tək alətsiz təlimi hesab etdiyimiz qaçışla yerişin düşünülmüş və sistemli olaraq inkişaf etdirilməsi araşdırılmışdır. Dövlət və ordu quruculuğu dövründən başlayaraq insanlar müxtəlif məqsədlərlə uzaq məsafələr qət etmək üçün düşünülmüş və sistemli təlimlər keçmişlər. Orta çağdan başlayaraq xəbərləşmə və qoruma məqsədi ilə sürətli olaraq uzaq məsafələr qət edə bilən xüsusi adamlar hazırlanmış və bunlara şatır deyilmişdir. **“Şatırlıq təlimi”** adlanan bənddə bu məsələlər hərtərəfli incələnmiş, şatırların kimlər tərəfindən, necə və hansı məqsədlərlə hazırlanması, üstün keyfiyyətləri tarixi mənbələr, elmi araşdırmalar, şifahi xalq ədəbiyyatı və s. qaynaqlar əsasında tədqiq olunmuşdur.

**“Hərb yönümlü təlim və oyunlar”** adlı üçüncü fəslin **“Atma təlim və oyunları”** paraqırafı üç bənddən ibarətdir. **“Nizə atma”** bəndində Azərbaycanda nizədən istifadə edilməsinin tarixi ilə yanaşı, tarixi qaynaqlara, arxeoloji materiallara, qayaüstü rəsmlərə və qəhrəmanlıq dastanlarına əsasən nizənin inkişaf tarixi, forma və növləri, istifadə şəkilləri geniş araşdırılmışdır. Bunularla yanaşı Azərbaycanda orta çağda geniş yayılan və bu gün unudulmaqda olan “Cirit” oyunu da tədqiq edilərək, oyunun xarakteri, qaydaları və meydan ölçülərinə aydınlıq gətirilmişdir.

**“Sapand atma”** bəndində ilk mexanizmli silahlardan olan sapandın tarixi, hazırlandığı materiallar, quruluşu, istifadə qaydaları tarixi qaynaqlar, arxeoloji tapıntılar, qayaüstü təsvirlər və folklor nümunələri əsasında tədqiq olunmuş, bu sahədə gələcək tədqiqatçılar üçün yararlı olacaq nəticələr əldə olunmuşdur. Digər tərəfdən sapandın bugün geniş yayılan çəkic atma idmanının yaranmasında mühüm rol oynadığı fikrinə varılmışdır.

**“Oxatma”** bəndində icadı ilə insanın həyatında inqilabı

dəyişiklik edən və üçüncü mexanizmli silah olan oxun tarixi, inkişaf mərhələləri, hazırlanma materialları və qaydaları, təlim üsulları, istifadə sahələri geniş tədqiq olunmuşdur. Bu məqsədlə arxeoloji materiallardan, tarixi mənbələrdən, qayaüstü rəsmlərdən və şifahi xalq ədəbiyyatından istifadə edilmişdir. Oxatma ilə bağlı olan "Qopuq", "Piyalə və ox" və "Altunqabaq" oyunları isə Azərbaycanda oxatmanın həm olduqca geniş yayıldığını, həm də insanlara kiçik yaşlarından düşünülmüş, sistemli və uzunsürəli təlimlərlə öyrədildiyini ortaya qoyur.

**"Qılınc oynatma"** paraqrafında Azərbaycanda geniş yayılmış qılınc silahı ilə bağlı arxeoloji tapıntılar, qayaüstü rəsmlər, qədim qaynaqlar, orta əsr mənbələri, folklor, döymə, oyma, toxuma və s. yaradıcılıq nümunələri incələnərək qılıncın yaranması, istifadə imkanları, təlim üsulları, qılınc təliminin əhaliyə kiçik yaşlarından və cinsiyyət fərqi olmadan öyrədilməsi, əhali arasında geniş yayılan, bayram və şənliklərdə istifadə edilən oyunlar araşdırılmışdır.

**"Zorxana oyunları"** paraqrafında XX yüzilliyin əvvəllərinədək Azərbaycanın müxtəlif bölgələrində istifadə olunan Zorxana oyunlarının ayrı-ayrı növlərinin yaranması, məqsədi və inkişafı tədqiq olunmuş, oyunların adlanmasına aydınlıq gətirilmişdir. Bu paraqrafın "**Yekpa və ya Ayaqdöymə və Çərxi və ya Təndövrə oyunu", "Sino və ya Quluncsındırma oyunu", "Mil oyunu", "Yekba və ya bargir oyunu", "Daşqaldırma və ya Səngi oyunu", "Kəbbadə və ya Kəmanə oyunu"** və **"Zorxana geyimi"** bəndlərində ayrı-ayrı oyunların adlanması, bu oyunlarda istifadə edilən alətlərin çəki və ölçüləri, oyunların insanın tərbiyə prosesinə təsiri və geyim vasitəsi tarixi qaynaqlar, muzey materialları, elmi əsərlər əsas götürülərək hərtərəfli araşdırılmışdır.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqata yekun vurulmuş, müdafiəyə çıxarılan müddəalar üzrə aşağıdakı nəticələr təsvir edilmiş, qarşıya qoyulan vəzifələrin yerinə yetirilmə ardıcıllığı və başlıca ümumiləşdirmələr və müvafiq tövsiyələr əksini tapmışdır:

Araşdırmalar zamanı fiziki mədəniyyətlə bağlı təlim növlərini inkişaf tarixinə və azərbaycanlıların həyatındakı önəminə görə iki yerə ayrımaq qərarına gəldik:

1. Ovçuluq və əyləncə məqsədli təlim növləri

2. Döyüş və ya hərbi məqsədli təlim növləri

İnsanlar düzəltdikləri silahlardan ilk vaxtlarda özünü vəhşi heyvanlardan qorumaq və qida təminatını ödəmək üçün istifadə etmiş, sonrakı dövrlərdə bu silahlardan daha yaxşı və səmərəli istifadə etmək üçün məşq etməyə başlamışlar. Bu məşqlər zamanla qədim insanın öz bacarıq və vərdişlərini artırması ilə yanaşı onun əylənməsinə, digər icma üzvləri və qəbilədaşları ilə yarışmasına gətirib çıxarmışdır.

Qədim və orta əsrlərdə hər adamın kiçik yaşlarından dövrün şərtlərindən irəli gələn səbəblərə görə həm özünü, ailəsini və sahib olduqlarını qorumaq və yenilərini əldə etmək, həm də həyatda və dövlətdə üstün mövqe qazanmaq üçün hərbi məqsədli təlim növləri ilə məşğul olduğunu müəyyən etdik.

Tədqiqatda Azərbaycanda hər zaman qadınların da kişilərlə birlikdə ov ovladığını, döyüşdüyünü və yarışdığını, bir çox silahdan bacarıqla istifadə etdiyini, yüksək fiziki hazırlığa və bacarığa sahib olduğunu gördük. Burdan o nəticəyə gəlirik ki, qədim dövrlərdən azərbaycanlılar arasında fiziki tərbiyə sistemli təşkil olunmuş, qadınların döyüş və ya əyləncə məqsədli istənilən təlim və oyun növü ilə məşğul olmasına hər hansı maneə olmamış, arzu edən qadınlar kişilərlə birlikdə istədikləri təlim, oyun, yarış və döyüşlərdə iştirak etmişdir.

Azərbaycanda kişilərin tərbiyəsində fiziki mədəniyyət çox mühüm yer tutub. Kişilərin döyüş, ovçuluq və yarış mahiyyətli olmasından asılı olmayaraq ən azı üç-dörd silah-alətdən və bir çox təlim növlərindən ustalıqla istifadə etdiyini görürük. Azərbaycanda fiziki təlimlərdən danışarkən qəti şəkildə deyə bilərik ki, qədim dövrlərdən XIX yüzilliyə qədər əhali kütləvi şəkildə və əsasən kiçik yaşlarından bu təlimlərlə məşğul olmuşdur.

Atdan istifadə məqsədinə görə atlı təlimləri də müxtəlifdir. Bu təlimlərdən biri tarixinin qədimliyi və geniş yayılması ilə yanaşı sayı və çeşidi çox olan atlı oyunlardır. Azərbaycanda geniş yayılan yarışlardan birinin Cıdır yarışlarıdır. Bu yarışların geniş yayılmasının və azərbaycanlıların həyatında xüsusi yer tutmasının əsas səbəbinin yarışlar üçün xüsusi alət və vasitələrə ehtiyac olmadığı və bu yarışmadan bayram və şənliklərdə daim istifadə edilməsidir.

Azərbaycanda geniş yayılan atlı oyunlardan biri çövkan oyunudur. Çovkan oyununun oyunçu sayından asılı olaraq xüsusi ölçülərə malik meydançada, xüsusi hazırlanmış top və "çovkan" adlı alətlə atlı və atsız olmaqla kişilərlə yanaşı qadınlar tərəfindən də oynandığı, eyni zamanda bu gün dünyada məşhur olan "motobol", "otüstə xokkey"və "qolf" oyunlarının çovkan oyunu əsasında yarandığı fikrini ortaya qoyduq.

Sürpapaq oyunu müəyyən oyunçu sayına və ölçülərə sahib meydançada üç hissə ilə oynanan, xüsusi oyun vasitəsi və qaydaları olan oyundur. Oyun hər oyunçudan uzunsürəli, düşünülmüş və davamlı təlimlər nəticəsində yaranan xüsusi bacarıq və vərdişlər tələb edir. Müasir basketbol oyununun bir çox elementlərinin Sürpapaq oyunu ilə oxşarlığı Sürpapaq oyununun müasir basketbol oyununun yaranmasında mühüm rol oynadığını göstərir.

Komanda və fərdi şəkildə keçirilən Papaq oyununda mütləq və toxunulmaz bir qız iştirakçının olması həm maraq və həyacanı artırır, həm də ciddi çətinliklər yaradır. Papaq oyunu oyunçuda sürət, cəldlik, çeviklik kimi keyfiyyətlərlə yanaşı, hücum etmək və qorunmaq vərdişlərini də formalaşdırır.

Baharbənd oyunu fərdi və komanda ilə keçirilən atlı oyundur. Oyun hər bir oyunçuda cəldlik, çeviklik və sürət kimi fiziki keyfiyyətlərlə yanaşı cəsarət, dözümlük, diqqət və dəqiqlik kimi iradi-psixoloji keyfiyyətlər də formalaşdırır. Baharbənd oyununda iştirkçısının arxayınlığı və ya yarış zamanı məsuliyyətsiz hərəkəti onun yarışı uduzması ilə yanaşı ciddi sağlıq sorunlarına və zədələnməsinə səbəb ola bilər.

Azərbaycanda geniş yayılmış təlimlərdən olan nizənin şəklinə, ölçüsünə, istifadə qaydalarına görə müxtəlif formaları olub. Azərbaycan xalqı nizədən ovçuluq və hərbi işlə yanaşı öz əyləncə və oyunlarında da istifadə etmişdir. Azərbaycanda geniş yayılan Cirit oyununda xüsusi təlim görmüş atlardan yararlanırlar. Oyunun aləti cirit bərk ağacdan düzəldilir. Cirit oyunu döyüşə hazırlıq məqsədi daşıdığından sərt keçir və zədələnmələrə səbəb olur.

Sapand tarixi qədim və mahiyyəti dəyişmiş təlim növlərindəndir. Sapandın sonrakı dövrlərdə mancanaqla daş atmanın da yaranmasına səbəb olmuşdur. Sapand forma və mahiyyətini

dəyişərək günümüzə uşaq və gənclərin balaca-fındıq boyda daşları atmaq üçün istifadə etdiyi bir oyun aləti kimi gəlib çatmışdır. Müasir dövrdə atletikanın geniş yayılmış növlərindən olan çəkic atma da sapandın əsasında yaranıb.

Azərbaycanda şüurlu insan formalaşdığı dövrdən başlayaraq oxatmaya da yaradıcı yanaşmış, bu münasibətlə həm yay və oxu, həm də yay və oxdan istifadə üçün təlimləri inkişaf etdirmişdir. Azərbaycanlılar hazırlanması xüsusi ustalıq tələb edən və təlimi mürəkkəb olan kaman və oxdan ovçuluqda, döyüşlərdə və yarışlarda geniş yararlanmışlar. Qopuq, Altunqabaq, Piyalə və ox oyunları Azərbaycanda sevilən və geniş yayılan oxatma və hərbi mahiyyətli oyunlarındandır. Orta əsrlərdə əsasən atlı olaraq oynanan bu oyunlar atsız olaraq da oynanmışdır.

Qədim insanın özünü qoruması üçün ağır daşları qaldırıb atması ilə başlayan ağırlıq qaldırma tarixin sonrakı mərhələlərində mahiyyət və şəklinə görə dəyişərək pəhləvan hazırlığının əsas amilinə çevrildi. Araşdırmalardan pəhləvan hazırlığı təlimlərinə kiçik yaşlarından başlandığını gördük. Azərbaycanda ağırlıq qaldırma təlimi əsasən döyüşçülərin hazırlanmasında qullanılsa da bayram və şənliklərdə keçirilən oyun və yarışlarda da geniş istifadə olunmuşdur.

Güləşdən həm döyüşçü və pəhlavan hazırlığında, həm də bayram və şənliklərdə geniş istifadə edilmişdir. Azərbaycanda güləş çox inkişaf etdiyinə görə bu sahə ilə bağlı çoxlu terminlər yarandığını, güləşçilərə ustalıq dərəcələrinə görə müxtəlif adlar verildiyini, eyni zamanda Azərbaycanda güləşlə kişilərlə yanaşı qadınların da məşğul olduğu və güləş təlimlərinə əsasən kiçik yaşlarından başlandığını müəyyən etdik.

Qədimdən həyat tərzi uzaq məsafəyə yürüş və qaçış olan insan, inkişafın sonrakı dönəmində bu xüsusiyyətləri sistemli təlim halına salmışdır. Dövrün tələblərinə uyğun olaraq bu təlimə cəlb olunanların daha geniş imkanlara yiyələnməsi və tapşırılan işin öhdəsindən gələ bilməsi üçün təlimlər sərtləşdirilərək müddəti uzadılmış, təlimlərə mükəmməl yiyələnənlərə xüsusi ad və imtiyazlar verilmişdir. Bu isə uzaq məsafələrə yürüş və qaçışla məşğul olanların-şatırlığın geniş yayılmasına və inkişafına səbəb olmuşdur. Şatırlıq müasir qaçış və idman yerişi yarışlarının formalaşmasında

mühüm rol oynayıb.

Orta əsrlərdə piyadaların və süvarilərin ən çox qullandığı silah qılınc olmuşdur. Bu da hər bir döyüşçünün mütləq qılınc təlimi keçdiyini göstərir. Azərbaycanda qılınc təlimi sadəcə döyüşçü hazırlığı ilə bağlı olmayıb bir çox oyunların və rəqslərin də icrasında əsas amil olmuşdur. Çubi, Qalxanqılınc, Şəmşirbaz oyunları son dövrlərədək oynanan qılıncoynatma oyunlarındandır.

Zorxana oyunlarının yarandığı ilkin çağlardan gənclərin fiziki cəhətdən güclü insan kimi hazırlanması, onların döyüşçü kimi yetişməsi məqsədini güddüyü,  burdakı alətlərin zorxanada məşğul olanların müəyyən silahlardan istifadəsini asanlaşdırmağa xidmət etdiyi fikrindəyik. Dissertasiyada Zorxana oyunlarının adlarını dəqiqləşdirərək, ardıcıllıqla icra olunan əsas yeddi oyundan ibarət olduğunu müəyyən etdik.

1. Yekpa və ya Ayaqdöymə və Çərxi və ya Təndövrə oyunu. Bu oyun əsasən zorxanaçını növbəti oyunlara hazırlamaq məqsədi daşıyır.
2. Sino və ya Quluncsındırma oyunu. Bu oyun qol, sinə və bel əzələlərinin inkişafı məqsədi ilə edilir. Xatırladım ki, indiki deyimlə “jim” kimi tələffüz etdiyimiz “sino” hərəkətindən güc tələb edən bütün idman növlərinin hazırlıq mərhələsində bu gün də istifadə olunur.
3. Mil oyunu. Bu alətin pəhləvanın ustalıq dərəcəsinə uyğun olaraq müxtəlif ölçü və çəkilərdə olduğunu təsbit etdik. Adətən mil alətinin çəkisini artırmaq üçün içərisinə qurğuşun doldurulur.
4. Yekba və ya bargir  oyunu. Bu alət də pəhlavanın ustalıq dərəcəsinə görə müxtəlif ölçü və çəkiyə malikdir.
5. Daşqaldırma və ya Səngi oyunu. Pəhləvanda güc, çəldlik və dözüm kimi keyfiyyətləri formalaşdıran və ağacdan düzəldilən bu alətlərin də çəkisini artırmaq üçün əvvəllər içərisinə qurğuşun doldurulurdu. Lakin sonralar bu aləti dəmirdən hazırlamağa başladılar.
6. Kəbbadə və ya Kəmanə oyunu. Oxatma məşqləri üçün istifadə olunan bu alət kaman formalı dəmir tutacaqdan və yayı əvəz edən dəmir zəncirdən ibarətdir. Bu alətdə hazırlıq keçdikdən sonra istənilən kamandan və istənilən tərəfə ox atmaq çox asan olur.

7. Güləş. Mənbələrin demək olar ki, hamısında zorxananın güləş yarışı ilə bitdiyi qeyd olunur.

Əlbəttə, bugünkü dünya görüşü və təfəkkürlə azərbaycanlıların ənənəvi həyatında fiziki mədəniyyətin roluna müxtəlif yanaşmalar ola bilər. Bizim araşdırmalarımız bir həqiqəti ortaya çıxardı ki, Azərbaycanda yaşayan insanlar bu fiziki mədəniyyətə tam məqsədli və şüurlu yanaşmışlar, müxtəlif fiziki təlim növləri Azərbaycanda çox geniş yayılmışdır və bugünkü bir çox idman növlərinin yaranmasında mühüm rol oynamışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**


1. Fiziki tərbiyə mədəniyyətimizin tarixindən // - Bakı: Dədə Qorqud (elmi-ədəbi toplu). – 2014.№ 1 (50). – s. 136-146
2. Nehrəmdə Novruz bayramı // - Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal. – 2016, il 5, say 1. – s. 199-212
3. Azərbaycan cəmiyyətində qadına verilən dəyər // “Azərbaycanda multikulturalizm və mədəni müxtəlifliyin turizmin inkişafına təsiri” mövzusunda respublika elmi konfransı–Bakı:-26 may,-2017, s. 21-24
4. Azerbaycan kahramanlık destanlarında fiziki kültür // I Uluslararası Develi-Aşık Seyrani ve Türk kültürü kongresi 3. kitap “Türk kültürü bildirileri” –Kayseri, - 4-5-6 ekim, -2018, - s. 95-106
5. Azerbaycan geleneksel atlı oyunları // II Uluslararası Develi-Aşık Seyrani ve Türk kültürü kongresi 3. kitap “Türk kültürü bildirileri” – Kayseri, - 10-12 ekim, -2019, - s. 284-293
6. Azərbaycanlıların həyatında ovçuluq və əyləncə xarakterli təlim növləri // -Bakı: Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. -2019, - c. 67. №3, - s. 147-156
7. Azərbaycanda milli oyunların turizmin gəlişməsində rolu // - Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal. – 2020, il 9, say 2-3, - s. 93-109
8. Milli oyunlar və turizm // İdarəetmədə multikultural dəyərlər mövzusunda Beynəlxalq elmi konfrans. - Bakı, - 25 noyabr, - 2020, s. 160-164

9. Azərbaycan tarixində fərqli din, dil və mədəniyyət mənsublarına yanaşma // "Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda respublika konfransı–Bakı:-19 noyabr, -2021, - s. 24-27
10. Истоки физической культуры в Огузском героическом эпосе и в Азербайджанской традиционной культуре // Вестник Северо-Восточного федерального университета имени М. К. Аммосова: Серия Эпосоведение. – Якутск, - 2021. №3 (23), - ст. 58-66
11. Azərbaycanda su idman növlərinin tarixi // -Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri.-2021. № 59, - s. 252-258
12. Метание при помощи пращи // SocioTime / Социальное время» («SocioTime»). Поволжский Государственный Технологический Университет. – Йошкар-Ола, - 2021. № 4 (28-ой), - ст. 77-84
13. Fiziki mədəniyyətdə aşıq oyunları haqqında // - -Bakı: Pedaqoji Universiteti. Tarix, insan və cəmiyyət. -2023. № 4, (41) - s. 123-132

Dissertasiyanın müdafiəsi 30 may ____________ 2024-cü il tarixində saat 10^00 -da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 aprel ______2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: __.__.2024
Kağızın formatı: A5
Həcm: 49409
Tiraj: 100